# NAFTALAN



*Naftalan Şəhər İcra Hakimiyyətinin orqanı*

*www.naftalan-ih.gov.az*

**№ 11-12 (427) • 31 may 2020-ci il • Qiyməti 90 qəpik**


# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 97-Cİ İLDONÜMÜ QEYD EDİLDİ



**Heydər ƏLİYEV:** **Azərbaycan mənim ürəyimdir, Azərbaycan mənim nəfəsimdir, Azərbaycan mənim həyatımdır. Mənim ürəyim daim öz doğma Vətənim Azərbaycanla bağlı, Azərbaycan haqqında hissiyyatlarla dolu olubdur. Azərbaycanlı kimi dünyaya gəldiyimə, Azərbaycan dilində danışmağıma, Azərbaycanı təmsil etdiyimə görə özümü həmişə xoşbəxt saymışam. Fəxr etmişəm ki, mən azərbaycanlıyam.**

**Nə qədər ki, Azərbaycan var, mən varam. Mən isə Azərbaycanda əbədi olacağam.**

**İlham ƏLİYEV:** **Heydər Əliyev ümummilli lider, Azərbaycan xalqının atasıdır. Hamımızın - onun davamçılarının əsas vəzifəsi ondan ibarətdir ki, Heydər Əliyevin yolunu davam etdirək. Mən bütün çıxışlarımda Azərbaycan xalqına vəd etmişəm ki, Heydər Əliyevin siyasətini hər zaman layiqincə davam etdirəcəyəm, çünki o, yeganə düzgün siyasətdir və heç bir şübhə yoxdur ki, bu siyasət Azərbaycanı daha parlaq gələcəyə aparır.**

# Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupunun videokonfrans vasitəsi ilə Zirvə görüşü keçirilmişdir




Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatına tam hüquqlu üzv qəbul olunmuşdur. Hərəkata üzv ölkələrin 2016-cı ildə Venesuelada keçirilmiş zirvə görüşündə 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul olunmuşdur. BMT-nin Baş Assambleyasından sonra ikinci ən böyük beynəlxalq təsisat olan və 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzvlükdən qısa müddət sonra ölkəmizin sədrlik etməsi üzv dövlətlərin Azərbaycana olan etimadının və ölkəmizin beynəlxalq nüfuzunun artmasının, eləcə də Azərbaycanın qlobal səylərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin parlaq nümunəsidir.

Azərbaycan Respublikasının Prezidenti və Qoşulmama Hərəkatının sədri cənab İlham Əliyevin təşəbbüsü ilə 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının koronavirusa qarşı mübarizə üzrə Təmas Qrupunun videokonfrans vasitəsilə Zirvə görüşü keçirilmişdir.

Zirvə görüşündə Əfqanıstan, Əlcəzair, Misir, İndoneziya, İran, Kuba, Nigeriya, Pakistan, Cənubi Afrika Respublikası, Fələstin, Türkmənistan, Venesuela, Nikaraqua, Efiopiya, Hindistan, Malayziya, Vyetnam, Qana, Küveyt, Mərakeş, Səudiyyə Ərəbistanı və digər ölkələrin prezidentləri, baş nazirləri və xarici işlər nazirləri çıxış etmişlər. Habelə, BMT-nin Baş Assambleyasının Prezidenti və Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru videokonfransda çıxış etmişlər. Eləcə də, BMT-nin Baş katibi və Avropa Komissiyasının ali nümayəndəsi, vitse-prezidentinin videomüraciətləri səsləndirilmişdir.

Təəssüflər olsun ki, qlobal əməkdaşlığa güclü ehtiyac duyulduğu bir şəraitdə dövlətlər, eləcə də bir sıra beynəlxalq və regional institutlar çaşqınlıq içərisində qalaraq beynəlxalq həmrəyliyi nümayiş etdirə bilmədilər. Hazırda qlobal liderliyə ehtiyac duyulduğu bir şəraitdə Prezident İlham Əliyev təşəbbüs irəli sürdü və "özünəqapanma sindromu"nun heç kəsə xeyir gətirməyəcəyini nümayiş etdirərək dünyanın dörd bir yanından müxtəlif siyasi və ideoloji quruluşlara malik ölkələri bir araya gətirməyə nail oldu. Bu gün biz əyani şəkildə Qoşulmama Hərəkatının fikir mübadiləsi, qlobal həmrəylik və əməkdaşlıq üçün səmərəli platformaya çevrildiyinin şahidi olduq.

Azərbaycan Prezidentinin Zirvə görüşünün keçirilməsi ilə bağlı təşəbbüsü üzv dövlətlər tərəfindən yekdilliklə dəstəklənmiş və Təmas Qrupunda coğrafi təmsilçilik və könüllü iştirak əsasında bütün regional qruplardan olan ölkələr təmsil olunmuşlar. 40-a yaxın ölkənin dövlət və hökumət başçılarının, Xarici İşlər nazirlərinin iştirak etdiyi sözügedən tədbir bir daha ölkəmizə və Prezidentimizə olan inamın, etibarın və etimadın göstəricisidir.

Qoşulmama Hərəkatının sədri olan Azərbaycanın fəal surətdə çoxtərəfli diplomatiyanı və multilateralizmi təşviq etməsi dünya birliyi tərəfindən təqdir olunur. Habelə, Zirvə görüşündə bu qədər ölkənin iştirakı Azərbaycan Prezidentinin şəxsi nüfuzunun, siyasi təcrübəsi və uğurlu siyasətinin nəticəsidir. Qəbul olunmuş bəyannamədə dəyərli və vaxtında irəli sürülmüş təşəbbüsə görə Prezidentimizə təşəkkürün öz əksini tapması bunun bariz göstəricisidir.

Təsadüfi deyil ki, BMT-nin Baş katibi çıxışı video müraciəti zamanı qeyd olunan problemə yeganə cavabın cəsarətli, uzaqgörən və birgə rəhbərlik olduğunu bildirmişdir. Eyni zamanda, o, Azərbaycan Prezidentinin belə bir görüşü çağırmasına görə təşəkkürünü bildirərək, BMT-nin Prezidentimizin səylərini dəstəklədiyini xüsusilə vurğulamışdır.

**Ardı 3-cü səhifədə**

# HEYDƏR ƏLİYEV - 97

# Bütün ömrünü doğma xalqa həsr edən Ulu Öndər



*Xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Naxçıvan şəhərində anadan olub.*

*1941-1944-cü illərdə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində məsul vəzifələrdə çalışıb, 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən sədri olub, general-mayor rütbəsinə yüksəlib.*

*1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçilib və 1982-ci ilə qədər Azərbaycan SSR-ə rəhbərlik edib. 1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışıb.*

*Ulu öndər 1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək bu cinayət əməlinin təşkilatçılarının və icraçılarının cəzalandırılmasını tələb edib, SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz olaraq 1991-ci ilin iyulunda Kommunist Partiyasının sıralarını tərk eləyib. 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olub, 1992-ci ildə Yeni Azərbaycan Partiyasının təsis qurultayında partiyanın sədri, iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilib, iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayıb, 1993-cü və 1998-ci illərdə Azərbaycan Res- publikasının Prezidenti seçilib, Yeni Azərbaycan Partiyasının və müstəqil Azərbaycan Respublikası Konstitusiyasının yaradıcısıdır.*

*Ulu öndər Heydər Əliyev 2003-cü il dekabrın 12-də haqq dünyasına qovuşub.*

Heydər Əliyev Azərbaycan xalqının mənəvi sərvəti, bəxtinə düşmüş Tanrı payıdır! Nadir, təkrarsız şəxsiyyət, millətinin və məmləkətinin yeni tarixinin memarı, böyük düha, güclü və müstəqil Azərbaycanın, dünyanın sayğı göstərdiyi, istiqlalı dönməz, gündən-günə qüdrətlənən çağdaş Azərbaycanın qurucusudur.

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi nadir təbiətli şəxsiyyətlərdəndir. Bütün mənalı həyatını öz xalqının siyasi, ictimai, mədəni həyatının dirçəlişinə sərf etmiş, müstəqillik yolu ilə cəsarətlə, əzmlə, uğurla irəliləməsinə çalışmışdır. Onun mənalı və mübarizələrlə dolu ibrətamiz həyat yolu gənc nəsil üçün əsl nümunə, örnəkdir.

Bu gün böyük fəxarət hissi ilə demək olar ki, Azərbaycan dövlətçiliyinin tarixi salnaməsində Heydər Əliyevin adı qızıl hərflərlə yazılmışdır. XX əsrin son qərinəsində dövlətçiliyimizin bənzərsiz memarı, el atası Heydər Əliyevin fəaliyyəti, əslində böyük bir eradır. Bu eranı nəzərdən keçirsək, orada Heydər Əliyev dühasından doğan, xalqımızın ictimai-siyasi və iqtisadi cəhətdən inkişafının çoxcəhətli istiqamətlərini görərik.

Heydər Əliyev özünün bütün həyatını, ömrünü xalqımızın tərəqqisinə, ölkəmizin inkişafına, məmləkətimizin dünyada tanınıb nüfuz qazanmasına həsr etmiş və buna uğurla nail olmuşdur. Ulu öndər Heydər Əliyev ideyalarının aliliyi, müqəddəsliyi, təmizliyi və ülviliyi onun xalq üçün, insan və insanlıq üçün düşünülmüş ideyalar olmasında idi. Dahi şəxsiyətin zəkası, sözü və əməli doğma xalqının inkişafına, tərəqqisinə həsr olunmuşdur. Müstəqillik yolunda inamla irəliləyən respublikanın hazırkı inkişaf səviyyəsinə gəlib çatmasında məhz ictimai islahatların, sosial-quruculuq işlərinin böyük əhəmiyyətini unikal zəkası ilə, sözü və əməlinin birliyi ilə həyata keçirməsi sayəsində mümkün olmuşdur. Dahi şəxsiyyətin ideyaları, həyatının mənası bu sözlərində ifadə olunmuşdur: "Mən həyatım, bütün əmək fəaliyyətim dövründə ancaq xalq üçün, insanlar üçün düşünmüşəm, xalq üçün yaşamışam, insanlar üçün yaşamışam. Bu gün də bu fikirlərlə yaşayıram".

Heydər Əliyev şəxsiyyətinin böyüklüyü və əzəməti ondadır ki, onun düşüncələri də, əməli fəaliyyəti də təkcə bu günlə məhdudlaşmır, o həm də uzaq gələcəyə ünvanlanmışdır. Ona görə də xalqımızın bu günü və sabahı, inam və etiqadı, şərəf və şöhrəti, ümid və güvənc yeri olan Heydər Əliyev dəyərli bir insan, ölkə rəhbəri, hər bir məsələdə onun ideyaları ilə hesablaşmağa ehtiyac doğuran bir fenomendir. Tək özü üçün yaşamayıb, xalqa, millətə bağlı olmaq, onun dərd-sərini, ağrı-acısını duymaq və daşımaq, onunla birlikdə gülmək, birlikdə sevinmək, ümummilli inkişafa, uğurlara, nailiyyətlərə gedən yolu işıqlandırmaq Heydər Əliyevin amalları, düşüncələri, həyat əqidəsi idi. O, böyük vətəndaş kimi düşünməyin simvolu idi, şəxsi səadəti ümummilli səadətə həsr olunmuş şəxsiyyət nümunəsi idi.

Azərbaycan xalqının mənəvi dirçəlişi, respublikanın iqtisadiyyatının və bütün həyat fəaliyyətinin yeniləşməsi məhz qeyri-adi, unikal bir şəxsiyyət olan Heydər Əliyevin adı ilə bağlıdır. Onun müdrikliyi, siyasi iradəsi sayəsində Azərbaycan dünya birliyində layiqli yer tutmuşdur. O, zəngin siyasi təcrübəsi, kəskin və güclü məntiqi ilə, daxili zənginliyi, fenomenal yaddaşı, qeyri-adi intuisiyası, sadə görünüşü, natiqlik məharəti ilə həmişə tərəf müqabilini heyrətləndirmiş, təəccübləndirmiş, özünə qarşı heyranlıq hissi doğurmuşdur. Heydər Əliyev hərtərəfli bilik sahibi idi. Azərbaycanın tarixinin, elminin, mədəniyyətinin, ictimai-siyasi və fəlsəfi fikrinin, həmçinin dünya tarixi, siyasəti və mədəniyyətinin dərin bilicisi idi.

Ulu öndər Heydər Əliyevin ideyalarını əqidəyə çevirmək, bu ideyaları yetişən nəslin ruhuna hopdurmaq, onları əsl vətəndaş kimi yetişdirmək, ölkənin, xalqın mənafeyi uğrunda fədakar mübarizlər kimi formalaşdırmaq, müstəqillik qazanmış suveren ölkənin tələblərinə cavab verən bir səviyyəyə qaldırmaq qarşımızda duran mühüm, ümdə vəzifədir. Belə bir vəzifənin uğurlu həlli üçün bütün tərbiyə işinin qoyuluşuna, onun daxili məzmun istiqamətinə nüfuz etmək, böyüyən nəsillərin idrakına və qəlbinə Heydər Əliyev ideyaları ilə təsir göstərmək lazımdır.

**Elman ALIYEV,**
**Naftalan Şəhər Heydər Əliyev mərkəzinin direktoru**

# Ölkəmizdə gedən iqtisadi islahatlar Naftalanda əhali tərəfindən yüksək qiymətləndirilir

Azərbaycan Respublikasının Prezidenti Möhtərəm cənab İlham Əliyev dünyada tüğyan edən pandemiya ilə mübarizə şəraitində də genişmiqyaslı islahatlar aparılmasını davam etdirir. Eyni zamanda pandemiyaya qarşı mübarizə şəraitində insanlarımızın həyat və sağlamlıqlarının qorunması ilə bərabər iqtisadiyyatımızın qorunması üçün də geniş tədbirlər həyata keçirir. Koronavirus nəticəsində çətinliklərlə üzləşən özəl sektorun müvafiq sahələrinə ciddi dəstək paketləri təqdim etmişdir. Möhtərəm Prezidentin qayğısı nəticəsində xidmət və digər sahələrdə çalışan minlərlə aztəminatlı ailələrə maddi yardım verilməsinə köməklik göstərildi. Hətta bank kreditlərini gecikdirmə ilə ödəyən insanlarımıza güzəştlərin edilməsi üçün çox mühüm qərarlar qəbul edildi. Bütün bunlar isə insan amilinə yüksək həssaslıq nümunəsidir. Ölkəmizdə bütün sahələrdə aparılan islahatlar nəticəsində xalqımızı xoşbəxt günlərin davam edəcəyi gözləyir. Təkcə 2019-cu ildə aparılan iqtisadi islahatlar nəticəsində ölkəmizdə əmək haqqı və pensiyaların artırılması bir daha göstərir ki, xalqımız Ümummilli liderin layiqli siyasi davamçısı Azərbaycan Respublikasının Prezidenti Möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə daha böyük iqtisadi nəticələr qazanılacaqdır. İqtisadi islahatların davamlı aparılması gələcək nəsillərimizin də xoşbəxt yaşamasına, qurub yaratmasına, yüksək elmi naliyyətlər qazanmasına geniş yol açacaqdır.

Ölkəmizin iqtisadiyyatı yüksəldikcə müdafiə qüdrətimiz də artacaq, beləliklə də sülh yolu ilə olmasa da, hərb yolu ilə işğal olunmuş torpaqlarımız azad ediləcək, məcburi köçkünlərimiz öz doğma yurd-yuvalarına qayıdacaqlar.

Prezidentimiz islahatların həyata keçirilməsi ilə yanaşı rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə aparılmasını da ön plana çəkmişdir. Humanist çağırışlara, xoşagəlməz hallara son qoyulması haqqında verilmiş tapşırıqlara, tənqidlərə məhəl qoymayanlara qarşı çox sərt və qətiyyətli addımların atılmasına gətirib çıxardı. Ağstafa, Yevlax, Neftçala, Biləsuvar və İmişli rayonlarının keçmiş başçıları onlara göstərilən yüksək etimaddan sui-istifadə edərək korrupsiya cinayətləri törətdilər. Möhtərəm Prezidentin "Biz birlikdə güclüyük" şüarına qoşularaq gözəgörünməz düşmənə - koronavirus təhlükəsinə qarşı mübarizə aparmaq əvəzinə yerlərdə xalq-iqtidar birliyini pozmağa və təhsil, səhiyyə, maliyyə, sahibkarlıq sahələrinin hər birini korrupsiya bataqlığına çəkmişdilər.

Ali Baş Komandan Siz ölkəmizdə çox geniş iqtisadi və kadr islahatı apardığınız, xalqımızın sağlamlığı, sosial rifahı üçün bütün qüvvələri səfərbər etdiyiniz bir zamanda koronavirusla mübarizə ilə bağlı ölkəmizdə gördüyünüz qabaqlayıcı tədbirlərlə xalqımızı böyük fəlakətdən xilas etdiniz. Cənab Prezident! Ölkəmizin iqtisadiyyatını yüksəltməklə yanaşı Siz, hər zaman vətəndaşların yanında olub onların sevincinə və kədərinə şərik çıxmısınız.

Şəhərimizin bütün sakinləri, ziyalılar Sizi daima dəstəkləyir və ümid edirik ki, Siz, xalqımızı bu virus bəlasından da çıxaracaqsınız.

Ulu Tanrı Sizi qorusun!

**Bəsti ƏDİLOVA,**
**Naftalan şəhəri İmadəddin Nəsimi adına 1 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi "Tərəqqi" medalçısı**

# Naftalanda karantin rejiminin yumşaldılmasından sonra yaşıllaşdırma işlərinə start verilib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq kurort şəhəri Naftalanda son illər ərzində bir sıra infrastruktur və sosial layihələr uğurla həyata keçirilib. Respublikamızın bəzi şəhər və rayonlarında karantin rejiminin yumşaldılmasından sonra, Naftalan şəhərinin estetik gözəlliyinin bərpası və kurort iqliminin yaxşılaşdırılması ilə əlaqədar yaşıllaşdırma işlərinə başlanılıb.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov və aparatın işçiləri tərəfindən şəhərin Bayraq Meydanında, Şirvan prospektində oleander və eldar şamı ağacları, çoxillik bəzək gülləri, ümumilikdə 1000-ə yaxın ağac, kol və güllər əkilib.

Şəhər sakinlərinin, həmçinin şəhərə gələn yerli və xarici turistlərin məmnunluğunun təmin edilməsi üçün şəhər ərazisində, parklarda yaşıllaşdırma işləri mütəmadi olaraq davam etdiriləcəkdir.

**Ülfət ƏLİYEV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Ölkəmizdə aparılan islahatlar uğurla davam edir

Möhtərəm Prezidentimiz, Ali Baş komandanımız cənab İlham Əliyev əhalinin rifahı, firavan yaşaması, xoş gələcəyi üçün böyük işlər görür, məqsədyönlü siyasət həyata keçirir. Hətta bu çətin dönəmdə, koronavirus infeksiyasının qarşısının alınması və yoluxanların müalicəsi işlərini bilavasitə nəzarətdə saxlayır.

Öz davranışı və atdığı addımlarla böyük nümunələr sərgiləyir. İdarəçiliyə cəlb etdiyi insanlardan da tələbi əhali ilə normal rəftar etmələri, onlara həvalə edilən işləri vicdan və şərəflə yerinə yetirmələridir.

Bu gün əhalinin dövlət başçısından razılığı şübhəsizdir. Amma sirr deyil ki, bəzi məmurların yarıtmaz fəaliyyəti nəticəsində onlarla əhali arasında problem yaşanır. Bu da əhalinin narazılığına səbəb olur. Ona görə də son vaxtlar bununla bağlı ciddi tədbirlər həyata keçirilir.

Dünyanın pandemiya təhlükəsi qarşısında aciz qaldığı bir dönəmdə ölkəmizdə müşahidə olunan müsbət tendensiyaya və doğma Naftalanımızda koronavirusa qarşı aparılan işlərə, səliqə-səhmana, əmin-amanlığa görə ölkə başçımız cənab İlham Əliyevə öz ailəm adından, eləcə də bir şəhər ağsaqqalı kimi sonsuz məhəbbətimi və dərin minnətdarlığımı bildirirəm.

**Camaləddin YUSİFOV,**
**Naftalan şəhər sakini**

# Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupunun videokonfrans vasitəsi ilə Zirvə görüşü keçirilmişdir

Əvvəli 1-ci səhifədə.

Azərbaycan bundan əvvəl də video- konfrans formatında zirvə görüşü keçirmişdir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilmişdir. Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirmişdir. Artıq Türk Şurası çərçivəsində 3 istiqamət üzrə - səhiyyə, nəqliyyat və iqtisadiyyat üzrə əməkdaşlıq mövcuddur.

Türk Şurasının Zirvə Görüşündə çıxış zamanı cənab Prezident haqlı olaraq vurğuladı ki, "pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi olduq". Belə bir təhlükənin hər kəsin qapısını döydüyü və multilateralizmin demək olar ki can verdiyi şəraitdə belə, Prezident İlham Əliyev nümunəvi addım ataraq pandemiyaya yalnız qlobal əməkdaşlıq və həmrəylik sayəsində qalib gəlməyin mümkünlüyünü dünyaya nümayiş etdirdi.



Dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi Azərbaycan koronavirus təhlükəsinin ilk günlərindən etibarən qlobal həmrəylik çağırışlarına dəstək vermişdir. Azərbaycan koronavirusa qarşı qlobal mübarizəyə dəstək olaraq Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırmışdır. Eyni zamanda, əlavə olaraq Ümumdünya Səhiyyə Təşkilatına bir daha könüllü maliyyə töhfəsi ayrılacaqdır ki, bu dəstək zəruri ehtiyacların qarşılanması üçün koronavirusdan ən çox zərər çəkmiş Hərəkat üzvlərinə yönəldiləcəkdir. Habelə, Azərbaycan tərəfindən bir sıra ölkələrə də ikitərəfli əsasda yardım həyata keçirilmiş və keçirilməkdədir.

Koronavirus infeksiyası hər bir dövləti ciddi sınaq qarşısında qoymuşdur. Bəzisi bu sınaqdan layiqincə çıxmaqdadır, bəzisi isə çoxsaylı insan itkisi ilə. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus tərəfindən mart ayının 23-də Prezidentimizə ünvanladığı məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilmişdir. Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir. Prezident İlham Əliyevin gördüyü qabaqlayıcı tədbirlər sayəsində bu gün koronavirusa qarşı ən effektiv mübarizə aparan ölkələrdən söz açdıqda Azərbaycanın adı birincilər cərgəsində gəlir. Eləcə də, effektiv nəticələrə görə Azərbaycanda koronavirusa qarşı aparılan mübarizə beynəlxalq səviyyədə təqdir olunur. Azərbaycan Prezidentinin yaranmış vəziyyətin sosial-iqtisadi sferaya çətinlik yaratmaması ilə bağlı verdiyi qərarlar da, Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən təqdir olunur.

Avropa İttifaqının rəsmisinin Zirvə görüşündə iştirakı və çıxışı Qoşulmama Hərəkatının tarixində ilk dəfə baş vermiş hadisədir. Qeyd olunmalıdır ki, məhz Azərbaycan daim bir-biri ilə əks qütblərdə olan Qoşulmama Hərəkatı ilə Avropa İttifaqını koronavirus təhlükəsi zamanı bir araya gətirməyə müvəffəq olmuşdur.

Sadalanan faktlar Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanın dünya miqyasında nüfuzunun daim artdığının göstəricisidir.

# Ölkəmizin bütün sahələrində kadr islahatları uğurla aparılır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2013-cü ildən başlayaraq dövlət idarəçiliyinin bütün sahələrində kadr islahatı intensiv şəkildə davam etdirilir. Aparılan islahatların əsas xətlərindən biri korrupsiya ilə mübarizənin daha da gücləndirilməsi və dövlət məmurlarının vətəndaşlarla münasibətinin daha sağlam şəkildə qurulmasıdır. Kadr islahatında gənclərin irəli çəkilməsi, daha məsul vəzifələrə təyin edilməsi, onların bilik və bacarıqlarından idarəetmədə və istehsalatda səmərəli istifadə olunmasına geniş imkanlar yaratmışdır. Bu isə ölkəmizin və cəmiyyətimizin xeyrinə atılan addımlardır.

Cənab Prezidentin rəhbərliyi ilə ölkədə reallaşdırılan siyasətin başlıca istiqamətlərindən biri gənclərə dövlət dəstəyinin gücləndirilməsindən, onlara hərtərəfli diqqət göstərilməsindən ibarətdir. Son illər respublikamızda həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şərait və təminatların yaradılmasını surətləndirib, onların ictimai-siyasi fəallığının artırılmasına kömək edib. Bunun nəticəsidir ki, Azərbaycan gəncləri ictimai həyatın bütün sahələrində fəallıqları ilə seçilirlər. Azərbaycan gənci idman, elim, mədəniyyət, incəsənət və digər sahələrdə böyük naliyyətlər qazanır, dövlətçilik ənənələrini daim uca tutur.

Məlum koronavirus pandemiyası dövründə də gənclərimiz sözün həqiqi mənasında "ön cəbhədə" çalışan müəyyən dövlət strukturlarının, eləcə də həkimlərimizin yanında olmağı özlərinə borc bildilər. Əhalinin sosial baxımdan zəif, yaşlı nəslinin nümayəndələrinə, aztəminatlı ailələrə, tənha yaşlılara könüllülük prinsipi əsasında yardımlar göstərilməsində də məhz gənclərimiz fəallıqları ilə seçilirlər.

Bütün sturukturlarda aparılan islahatlarda birinci növbədə gənclərimizin irəli çəkilməsi, onların məsul vəzifələrə təyin edilməsi bir daha gənclərdə ruh yüksəkliyi yaratmış və pandemiyanın dünyanı bürüdüyü bu günlərdə Prezident cənab İlham Əliyevə ünvanladıqları çoxsaylı məktublarda da, aparılan siyasəti dəsdəklədikləri bir daha bildirilir. Bu məktubların hamısında cənab Prezidentin xalqımıza, o cümlədən gənclərə göstərdiyi diqqət və qayğının tükənmədiyi bildirilir.

Gənclərimiz ölkəmizdə aparılan quruculuq, abadlıq işlərini, on illərlə gediş-gəlişi çox çətin olan kəndarası yolların çəkilməsi, yüzlərlə yeni məktəblərin, xəstəxanaların, mədəniyyət evlərinin, uşaq bağçalarının tikildiyi, yeni park və xiyabanların salındığı bu günlərdə cənab Prezident Sizin etimadınızı doğrultmayan, rüşvətxorluqla məşğul olan, xalqı, dövlətə qarşı çevirən məmurlara ar olsun deyirik.

Möhtərəm Prezident Sizin kadr islahatı ilə əlaqədar qəbul etdiyiniz bütün qərarlar Naftalan şəhərində də ardıcıl həyata keçirilir. Gənc kadrların dövlət qulluğunda və digər sahələrdə irəli çəkilməsi, onların bilik və bacarıqlarından səmərəli istifadə edilməsi artıq öz töhfəsini verməkdədir. Gənclərin hər birinin təşəbbüsləri, təqdim etdiyi layihələr geniş müzakirə edilir, onların vətənpərvərliyi, inkişafı, yüksək intellekti, dünyagörüşləri göz önündədir.

Cənab Prezident, Azərbaycan gəncləri apardığınız bütün işlərdə, o cümlədən kadr islahatları ilə əlaqədar həyata keçirdiyiniz işlərdə Sizə tükənməz enerji və böyük qələbələr arzulayır.

**Ayxan ƏSGƏROV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunda aparıcı məsləhətçi**

# Ölkə böyük qələbə üçün səfərbər olmuşdu







İkinci dünya müharibəsində faşizm üzərində qələbəmizin 75 illiyi tamam oldu. Bu qələbə beynəlxalq miqyasda uzunmuddətli sülhə təminat yaratmaqla dünyanın siyasi xəritəsini qalib dövlətlərin xeyrinə əsaslı surətdə dəyişdi və sosializm düşərgəsi deyilən hərbi-siyasi ittifaqın əsası qoyuldu. Dörd il çəkən müharibədə sovet xalqı 20 milyondan artıq, Azərbaycan xalqı isə 300 mindən çox adam itirdi. Minlərlə şəhərin, kəndin xarabazara çevrilməsi, qocaların, uşaqların, qadınların, isti ocaqlarından didərgin düşməsi müharibənin vurduğu sağalmaz yaralar idi və daim qövr edən bu yaraların sağalması on illərlə vaxt tələb edirdi. Xəzər sahillərindən faşizmin qanlı yuvasına qədər keçilən döyüş yolları xalqımızın qəhrəmanlıq tarixinin parlaq səhifəsidir. Azərbaycan əsgərlərini yaşadan, özündən qat-qat güclü düşmənlə ölüm-dirim mübarizəsinə səfərbər edən qüvvə Vətən, yurd sevgisi, doğma torpağı düşmən tapdağından qorumaq əzmi idi.

1941-ci ilin soyuq oktyabr günlərində ölkənin paytaxtı Moskva üzərinə alman qoşunlarının hücumu Reyxin planlaşdırdığı kimi, noyabrın 7-də Qızıl Meydanda qələbə rəsm-keçidi ilə başa çatmalı idi. Baş tutmadı. "Sevimli paytaxtımızı düşmənə verməyəcəyik" - deyə sinəsini düşmən həmləsinə sipər edənlər arasında azərbaycanlı oğullar da vardı. Həzi Aslanovun başçılıq etdiyi tank bölməsinin qüvvələr nisbətinə görə qeyri-bərabər döyüşdə düşmənin tank birləşməsinə vurduğu taktiki zərbələr onların sıralarını pərən-pərən saldı və 34 yaşlı azərbaycanlı gənc generala Sovet İttifaqı Qəhrəmanı adını qazandırdı. Döyüşdən sonra komandir onu bağrına basıb demişdi: "Çox sağ ol, yoldaş Aslanov! Sən azərbaycanlı, mənsə rusam, ancaq bizim qəlbimiz birdir. Sən öz qəhrəmanlığınla nəinki Azərbaycan xalqının, eləcə də bütün Sovet xalqının döyüş və dostluq şöhrətini zənginləşdirdin. Sən həqiqətən doğma Moskvanın ləyaqətli müdafiəçisisən.

Müharibə dövrünün salnaməsi olan qəzetlər ağır müdafiə döyüşlərində Azərbaycan oğullarının iradə və döyüş qabiliyyətinə şahidlik edib. 1941-ci ilin şaxtalı dekabr günlərində Azərbaycanın igid oğlu baş serjant İsrafil Məmmədov müxtəlif millətdən olan 20 nəfər döyüşçü yoldaşı ilə qədim rus torpağı Novqorod yaxınlığındakı, Pustinka kəndi uğrunda döyüşlərdə 300-dən artıq faşisti məhv edəndə, "Krasnaya zvezda" qəzeti yazırdı: "… soruşsalar ki, döyüş zamanı dostluq nədir? Biz iftixarla deyərik: Sovet İttifaqı Qəhrəmanı İsrfail Məmmədova və onun döyüşçü yoldaşlarına baxın…"

1942-ci ildə Sevastopol uğrunda döyüşlərdə Qafur Məmmədovun öz sinəsini irəli verib komandiri Sinitsini düşmən gülləsindən xilas etməsi döyüş dostluğuna gözəl abidə deyilmi?

Amansız döyüşlər gedən Rusiya, Ukrayna, Belorusiya, Moldaviya, Pribaltika torpaqlarında neçə-neçə azərbaycanlı döyüşçü o xalqların azadlığı yolunda öz canlarını fəda edib. Qardaşlıq qəbristanlıqlarında hörmətlə dəfn edilən, həyatdan nakam getmiş oğul və qızlarımız dost ellərin torpaqlarında əbədiyyətə qovuşmuşlar.

Adriatik dənizinin sahillərində, Sloveniyada əfsanəvi kəşfiyyatçı Mehdi Hüseynzadənin (Mixaylo) qəhrəmanlığı bu gün də müstəqil dövlətimizin təhlükəsizliyini qorumalı olan gənclərimizə nümunədir. Alman dilini mükəmməl bildiyinə görə, Mehdi dəfələrlə çox qiymətli kəşfiyyat məlumatları toplamış, eyni zamanda strateji məntəqələrdə partlayışlar törədərək düşmənin canlı qüvvəsini və texnikasını məhv etmişdir. Bəşəriyyət üçün dəhşətli, faciəli fəlakətlər dövrü kimi yadda qalan İkinci Dünya müharibəsi həmin gün SSRİ-nin qələbəsi ilə başa çatıb və faşizm süqut edib.

Azərbaycan faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz isə müxtəlif orden və medallarla təltif edilib.

**REDAKTORDAN**

# Naftalanda şəhidin xatirəsinə tikilmiş bulaq kompleksi təmirdən sonra

**Vətən, torpaq uğrunda canından keçənlər, özlərini fəda edənlər heç zaman unudulmur, daim yaşayırlar. Zaman keçdikcə onların göstərdikləri igidliklər dillərdə gəzir, nəsillərdən-nəsillərə ötürülür. Beləliklə, xalq öz igid, qəhrəman övladlarına qəlbində əbədi əzəmətli heykəl ucaldır. Belə mərd və cəsur oğlanlardan biri də naftalanlı şəhid Habil Əliyevdir. Bu günlərdə onun xatirəsinə tikilən abidə-bulağı və bulağın ətrafı əsaslı şəkildə təmir olunmuşdur.**



Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov şəhidin ailəsi ilə görüşmüş, burada aparılmış təmir-bərpa, restavrasiya işləri ilə tanış olmuşdur. Şəhər rəhbəri ailə üzvlərinə təsəlli verməmiş və bildirmişdir ki, şəhid Habil Əliyev ehtiramdan ətraflı söhbət açaraq qeyd etmişdir ki, bu gün ölkəmizdə Vətənin bütövlüyü uğrunda öz canından keçmiş şəhid ailələrinə, həmçinin müharibə veteranlarına və əlillərinə böyük diqqət və qayğı göstərilir. Şəhidin oğlu Samir Əliyev



öz qəhrəmanlığı ilə tarixin yaddaşına qızıl hərflərlə elə bir ad yazıb ki, o adı zaman tarixdən-tarixə, əsrdən-əsrə özü ilə yaşadacaq. Bu gün onunla hər kəs fəxr edir. O bütün gənclərə örnəkdir. Sonra, Vüqar Novruzov ölkə Prezidenti cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən şəhidlərimizə və şəhid ailələrinə göstərilən hörmət və və şəhidin həyat yoldaşı Mahiyyə Əliyeva ölkə başçısı və şəhər rəhbərliyi tərəfindən şəhid ailələrinə, Qarabağ müharibəsi veteranlarına və əlillərinə, məcburi köçkün ailələrinə göstərilən diqqət və qayğıya görə naftalanlılar adından sonsuz minnətdarlıqlarını bildiriblər.

REDAKTORDAN

# Qanuna qarşı çıxanlar haqlı cəzalarını almalıdırlar

Cənab Prezident tərəfindən verilmiş tapşırıqlardan düzgün nəticə çıxarmayan, rüşvət və korrupsiya hallarına son qoymayan şəxslərin dövlət tərəfindən ciddi cəzalandırılması davam edir. Dövlət Təhlükəsizliyi Xidmətinin ayıq sayıqlığı nəticəsində aşkarlanmış korrupsiya halları, rüşvətxorluq, dövlət əmlakının talama səbəblərindən həbs olunmuş Ağstafa, Yevlax, Neftçala, Biləsuvar, İmişli Şəhər və Rayon İcra Hakimiyyətlərinin keçmiş başçılarının düşdüyü vəziyyət xalqımız tərəfindən yüksək qiymətləndirilir. Bu hallar dövlətçiliyə və xalqa xəyanətdir. Əgər ortada xəyanət varsa, deməli, o heç bir halda cəzasız qala bilməz. Dövlətin xəyanətə və ya xəyanətlərə qarşı sərt cəza maşınını işə salması xalq tərəfindən müsbət qarşılanır. İnsanların sosial şəbəkələrdə bununla bağlı yazdıqları fikirlərə nəzər yetirdikdə, bir daha aydın olur ki, ictimaiyyət nümayəndələri ayrı-ayrı məmurların korrup siya əməllərinə görə cəzalanmasını və həbs olunmasını alqışlayır.

"Xalq da bizim tərəfimizdədir. Bütün bu ifşaedici görüntülər hər bir Azərbaycan vətəndaşında haqlı olaraq ikrah hissi doğurur"- deyən dövlət başçısı "mənə ünvanlanan yüzlərlə, minlərlə məktubda bizim bu addımlarımıza böyük dəstək göstərilir" deyərək dövlətə xəyanət edənlərə qarşı mübarizənin bundan sonra da davam etdiriləcəyinin vacibliyinə işarə vermişdir.

Dövlət başçısı Azərbaycan Respublikasının Baş Prokurorunu vəzifəyə təyin olunması ilə əlaqədar qəbul edərkən ölkədə korrupsiyaya qarşı amansız mübarizə aparılması ilə bağlı prinsipal mövqeyini bir daha diqqətə çatdırmış, tətbiq edilən məsuliyyət tədbirlərinin təkcə yerli icra hakimiyyəti orqanları ilə kifayətlənməyəcəyini, cəmiyyətin əsaslarını sarsıdan çirkin əməllərə yol verən bəzi mərkəzi icra hakimiyyəti orqanlarını da əhatə edəcəyini açıq bildirmişdir.

Ardı 5-ci səhifədə

# 28 MAY RESPUBLIKA GÜNÜDÜR




Xalqımız 1918-ci il mayın 28-də çar Rusiyasının bir əsrdən artıq davam edən müstəmləkə əsarətindən azad oldu, Şərqin ilk demokratik respublikasının təməlini qoydu. Cümhuriyyətinin qurulması XX əsrdə xalqımızın həyatında yeni bir mərhələ, tarixi hadisə oldu.Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ulu öndər Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışı ilə Azərbaycanın ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsl dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun dövlət quruculuğu prosesi başlandı. Uzaqgörən lider həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir rəşadətli ordunun,silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı.Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaradıb. Bütün mənalı həyatını öz xalqına bəxş edən Ulu Öndərin qurucusu olduğu müstəqil Azərbaycan getdikcə daha da inkişaf edəcək, qurucusunun adını əbədi yaşadacaqdır.

# Ermənistan neofaşizm siyasəti

Heç kimə sirr deyil ki, Müasir Ermənistanda terrorçuluq və faşizm ideologiyası dövlət siyasətinin ayrılmaz hissəsinə çevrilmişdir. Ermənistanın separatçı qüvvələri Vedibasarda, Göyçə mahalında, Qarabağda, Naxçıvanda 1918-1921-ci illərdə 10 minlərlə azərbaycanlını qətlə yetirmiş, 100 minlərlə insanlar torpaqlarında didərgin salınmışlar. Böyük Vətən müharibə- sində faşist Almaniyası ilə əlaqə yaratmış və 1942-ci ildə general Dro (Drastamat Kanayan) ilə birlikdə Vermaxt nəzdində hərbi birləşmənin formalaşmasında iştirak etmiş və sovet ittifaqına qarşı təxribatlar aparmış Qaregin Njdeyə (Qaregin Ter-Arutunyan) Yerevanın mərkəzində 6 metr hündürlüyündə heykəl ucaltmaqla, faşist cəlladı və canisini qəhrəmanlaşdırmışlar. Ermənistanın keçmiş və yeni rəhbərləri həqiqəti demək əvəzinə qəddarlığı və faşizmi təbliğ edir, Njde Ermənistanda milli və etnik zəmində nifrəti təbliğ edən nəzəriyyənin banisidir. Uydurma "Böyük Ermənistan" ideyasının müəlliflərindən biri olan qatı millətçi, cinayətkar Böyük Vətən müharibəsində də Hitler Almaniyasının tərəfini saxlayaraq sovet qoşunlarına və müttəfiqlərə qarşı döyüşmüşdür.



Ermənistanın yeni rəhbərliyi də keçmiş sələflərinin ardınca faşizmə rəğbətini daim müsbət mənada vurğulamaqdan çəkinməmişdir. Müharibə illərində erməni faşisti Njdenin dediyi "Almanya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur" sözləri Ermənistan hakimiyyəti tərəfindən bu gün də ermənilər tərəfindən yüksək qiymətləndirilir. Hitler Almaniyasında SS-ə xidmət göstərmiş və öldürülmüş erməni Nikolay Vartanoviç Paşinyanın nəvəsinin hazırda baş nazir olduğu ölkədə vətəndaşların fərqli düşüncələri mümkün deyildir. Belə görünür ki, Ermənistanın baş naziri Nikol Paşinyanın babası haqqında yayılan məlumatlar ona məlum olduğu üçün o faşizmə rəğbətini gizlədə bilmir. Paşinyanın babası döyüşdüyü Hitler Almaniyasının SS qoşunları tərəfindən işğal olunmuş ərazilərdə mülki əhalinin kütləvi şəkildə qəddarlıqla qətlə yetirilməsi ilə məşğul olmuşdur. Ermənistanın baş naziri Nikol Paşinyanın babasının nasist hakimiyyəti ilə əməkdaşlıq etdiyi barədə rüsvayçı faktlar ətrafında əsl qalmaqal yaşanır. Araşdırmalar göstərir ki, Nikolay Paşinyan 1943-cü ildə Alman Vermaxtının erməni legionunda siravi rütbəsi ilə Qırmızı orduya qarşı döyüşlərdə ölmüşdür. Ona görədə Ermənistanın baş nazirinin babasının faşistlərə xidmət etdiyinə görə o, nasist əlaltılarını dəstəkləyir, Qaregin Njde, general Dro kimi faşistlərə və onların əlaltılarına rəğbət bəsləyir, ilahiləşdirir. Erməni legionunun işi indi də davam etdirilir, çünki analoji işğalçı korpus Azərbaycanın işğal olunmuş ərazilərində fəaliyyət göstərir. Faktlar göstərir ki, Vermaxtın erməni legionunun fəaliyyətinə Ermənistanın əvvəlki və indiki hakimiyyətləri tərəfindən bəraət qazandırılır. Bu təkzib olunmaz faktdır, çünki Sarkisyan Njdenin abidəsinin açılışında iştirak etdi, Paşinyan isə Qaregin Njdeni Ermənistanın qəhrəmanı olduğunu dəfələrlə bəyan edib.

Azərbaycan Respublikasının Prezi- denti cənab İlham Əliyev ötən il "Valday" beynəlxalq diskussiyası klubunun XVI illik toplantısında, eləcə də MDB Dövlət Başçıları Şurasının Aşqabad Sammitində çıxışı zamanı 25 ildən çoxdur ki, Azərbaycanın Dağlıq Qarabağ ərazisi və onun ətrafındakı 7 rayonun erməni işğalı altında olduğunu diqqətə çatdırmış və Ermənistanın əsassız ərazi iddialarını tarixi faktlara əsaslanaraq ifşa etmişdir. "Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı ilə işğalçı dövlətə tutarlı cavab vermişdir.

Erməni cəmiyyətinin faşizmə meyillənməsi halları mütəmadi olaraq müşahidə edilir. Hətta onların müasir dövrümüzdə Azərbaycan xalqına qarşı 1988-ci ildən başlayaraq soyqırım törətməsi, etnik təmizləmə aparması nəticəsində Qərbi Azərbaycanda, Dağlıq Qarabağda və onun ətrafındakı rayon- larda azərbaycanlılar yaşayan kəndlər, qəsəbələr, şəhərlər işğal olunmuş, XX əsrin ən qanlı hadisələrindən olan "Xocalı soyqırmı" törədilmişdir. İşğal olunmuş ərazilərdə mülki şəxslərin kütləvi qırğını qəddarlığına görə Hitler Almanyasının SS qoşunu tərəfindən aparılan qırğınlarla üst-üstə düşmüşdür. Bu məsələlərdə Ermənistanın keçmiş rəhbərləri Robert Koçaryan, Serj Sarkisyan özlərinin əziz sələfləri Stepan Şaumyandan, qulağıkəsik Andronikdən və digər erməni daşnaqlarından heçdə geridə qalmayıblar.

Osmanlı imperiyasında anadan olan bədnam Andranik bir müddət "Qncak" partiyasının, sonra isə terrorçu "Daşnaksütun"un üzvü olub və cinayət əməllərinin əlifbasını da bu şovinist qurumlarda öyrənməyə başlayıb. 1880-ci illərdə Andranik Osmanlı dövlətinə xəyanət etdiyi üçün cəza kimi onun qulağını kəsirlər, bundan sonra ona xalq arasında "birqulaqlı Andranik", "qulağı kəsik andranik" deyirlər. Andranik həmin dövrdə Türkiyədə fəaliyyət göstərən erməni silahlı dəstələri üçün silah qaçaqmalçılığı ilə məşğul olur və Osmanlı dövlətinin dağılması üçün əlindən gələni əsirgəmir.

1914-cü ilin avqustunda Andranik Rusiyanın Qafqaz ordusunun komandanı general Aleksandr Malışayevski ilə görüşür və rus ordusuna öz xidmətlərini təklif edir. Rus ordusu Andranikə erməni hərbi dəstələrini formalaşdırmağı tapşırır.

1917-ci il iyulun 19-u türk ordusu Naxçıvanı və Culfanı tutur, Andranik Zəngəzura qaçır. Zəngəzurda Andranikin rəhbərlik etdiyi silahlı dəstələr Azərbaycan kəndlərini dağıtmaqla məşğul idilər. Bu kəndlərin əhalisi kütləvi şəkildə öldürülür, diri-diri yandırılırdı. Tarixdən göründüyü kimi erməni şovinistləri azərbaycanlılara qarşı cinayətləri kütləvi şəkildə 1905-1907, 1918-1920, 1930-cu, 1948-1952, 1988-1993-cü illərdə törətmişdirlər. Onlar bu cinayət əməllərini Azərbaycan xalqına qarşı bu gün də davam etdirirlər.

**Möhübbət BƏDƏLOV**
**Naftalan ziyalısı**

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin CİSCO şirkətinin rəhbərləri arasında keçirilən videokonfrans strateji əməkdaşlığı daha da gücləndirir



Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti Möhtərəm cənab İlham Əliyev ABŞ-nı təmsil edən CİSCO şirkətinin rəhbərləri ilə videokonfransda görüşündə qeyd etmişdir ki, dünən mən ABŞ-nın Prezidenti Trampdan məktub almışam. O, məni və Azəbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə təbrik edib. Öz məktubunda Prezident Tramp yazır ki, təxminən 30 ildir Birləşmiş Ştatlar və Azərbaycan beynəlxalq təhlükəsizliyi, enerji təhlükəsizliyinin şaxələndirilməsini, siyasi islahatlar məsələlərini təmin etmək üçün birgə işləyirlər. Həmin məktubda o xüsusi olaraq qeyd edir ki, iki böyük dövlətimiz gələcəkdə daha çox işlər görəcək. Bu ABŞ ilə Azərbaycan arasında dostluğun çox mühüm təzahürüdür. Donald Trampın cənab İlham Əliyevə ünvanladığı təbrik məktubu bir daha ABŞ ilə Azərbaycan arasında olan münasibətlərin bundan sonrakı mərhələlərlə bütün sahələr üzrə daha da inkişaf edəcəyini təsdiqləyir. ABŞ-ın dövlət başçısı səviyyəsində Azərbaycan nüfuzlu və güclü dövlət olaraq qəbul edilir. Bu Azərbaycan və ABŞ arasında yaxın tərəfdaşlıq münasibətlərinin təsdiqi kimi səciyyələndirilir.

CİSCO şirkətinin vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer videokonfransdakı çıxışında qeyd etmişdir ki, şirkətin heyəti ilə Azərbaycan arasında keçirilən bu görüş çox səmərəlidir. Vurğulanıb ki, Cənab Prezident kimi liderin texnologiyaya belə açıq olması və onu ölkə üzrə tətbiqinə hazır olması məmnunedici haldır. Siz təkcə regionda deyil dünyada texnologiyaya dəstək verən liderlərdənsiniz. Xoş təəssurat bağışlayan haldır ki, COVİD-19 virusu ilə əlaqədar Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərakatının toplantılarının təşkil edilməsində liderlik səviyyənizi nümayiş etdirdiniz. Bir daha bu işlərə rəhbərlik etməyiniz bizə çox böyük təəssurat bağışladı.

Cənab Prezident çıxışında qeyd etmişdir ki, bu fikirlər Azərbaycanın regional mövqeyinin yüksək olduğunu bir daha təsdiq edir. Postpandemiya dövründə Azərbaycanda sahibkarlara dəstəyin daha da gücləndirilməsi, bütövlükdə yeni iqtisadi modelin tətbiqi müşahidə edilmişdir. Bu isə imkan verəcəkdir ki, pandemiyanın təsirlərini qısa zamanda bərpa etmək və bu təsirləri qısa zaman ərzində minumuma endirmək, bütövlükdə region üçün yeni iqtisadi model təqdim etmək imkanlarına malik olacağıq. CİSCO kimi nüfuzlu şirkətin Azərbaycana cəlbinə xüsusi diqqət göstərilməsidir. Burada əsas məqsəd bir tərəfdən ölkəyə yatırılan sərmayənin həcminin artırılması və xarici investorların Azərbaycana olan inamının möhkəmləndirilməsidirsə, digər tərəfdən də müasir texnologiyanın tətbiqi ilə iqtisadiyyatın, xüsusilə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsidir.

Videokonfransda CİSCO şirkətinin vitse-prezidenti Qay Ditrix çıxışında "Smart ölkə" təhsil və kibertəhlükəsizlik məsələlərinin Azərbaycanın Prezidenti tərəfindən qarşıya qoyulan prioritetlər olduğunu qeyd edib. Şirkətin vitse-prezidenti CİSCO-nun Azərbaycanda "Ağıllı şəhər" layihəsi əsasında "Ağıllı avtovağzal" layihəsini işlədiyini və bunun nəticəsində inanılmaz dərəcədə uğurlar olduğunu, əlavə olaraq "Ağıllı məktəblər" və "Ağıllı kənd təsərrüfatı" layihələrinin də işlənməsi müasir texnologiyanın təhsilə və kənd təsərrüfatına tətbiqinin Azərbaycanda həssaslıqla yanaşılacağını vurğulamışdır.

Dövlətimizin başçısı çıxışında Davosda keçirilən görüşdən sonra CİSCO ilə birgə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində böyük irəliləyişlərə nail olunduğunu, "Ağıllı şəhər" layihəsi sahəsində işlərin yaxşı getdiyini vurğulamış və bundan sonra atacağımız addımların planı hazır olacaq, yekun nəticə çıxacaq və hansı növ ehtiyatların toplanmasına ehtiyac duyulduğunu biləcəyik. Hazırda təhsil proqramı üçün verdiyiniz dəstək çox vacibdir lakin məktəblərimiz və universitetlərimiz koronavirusla əlaqədar mart ayından bağlanıb və tədris ilinin sonuna kimi onlar birmənalı olaraq açılmayacaq. Kənd təsərrüfatında məşğulluğu, ərzaq təhlükəsizliyini və ixrac üçün gözəçarpan nəticələrə nail olmaq üçün su ehtiyatlarımıza çox ciddi elektron nəzarət sistemi qurulmalıdır. Azərbaycanda su itkisi 40 və hətta 50 faiz təşkil edir. Azərbaycanda təkcə su itkisinə yol verilməsi torpaqlarımıza çox ziyan vurur, torpaq yuyulur və kənd təsərrüfatı üçün yararsız vəziyyətə düşür. Su ehtiyatlarının və balansının elektron idarə edilməsini qurmaqla və qabaqcıl texnologiyanı tətbiq etməklə kənd təsərrüfatı məhsulları ilə ölkəmizin təmin edilməsini və ixrac qabiliyyətimizi artırılmasına nail olmalıyıq.

CİSCO şirkəti ilə videokonfransda səsləndirilən məsələlər bir daha onu göstərir ki, bu gün qlobal enerji və nəliyyat-kommunikassiya layihələrinin uğurla gərçəkləşdirilməsi Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunun artırılması, neft strategiyasının milli mənafelərə uyğun davam etdirilməsi iqtisadi qüdrətimizi daha da artıracaq.

**Ülfət ƏLİYEV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Naftalan şəhərində könüllülər Möhtərəm cənab Prezidentin çağırışına qoşuldular

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın çağırışına cavab olaraq koronavirus infeksiyasının ölkəmizdə yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə dövlət tərəfindən atılan bütün zəruri addımlara, xüsusilə əhalinin maarifləndirilməsi və qayğıya ehtiyacı olan insanlara sosial xidmətlərin göstərilməsi istiqamətində həyata keçirilən tədbirlərə töhfə vermək məqsədilə Azərbaycanın bütün ərazisində oluğu kimi Naftalan şəhərində də könüllülər bu işə qoşulmuşlar. Pandemiya ilə mübarizədə şəhərimizdə fəaliyyət göstərən könüllülər "COVİD-19"la bağlı ayrı-ayrı qurumların işinə yaxından köməklik göstərməyə başladılar. Ölkə başçısının koronavirusla əlaqədar verdiyi tapşırıqların yerinə yetirilməsi üçün şəhər xəstəxanasında əhalinin tibbi müayinədən keçirilməsi sahəsində tibb işçilərinin yaxın köməkçilərinə çevrildilər. Əhalinin tibbi müayinəyə cəlb edilməsi işində ayrı-ayrı yerlərdə maarifləndirmə işləri apardılar. Bunun nəticəsidir ki, şəhər əhalisinin xeyli hissəsi koronavirusla əlaqədar tibbi müayinədən keçirilmiş və bu işin ardıcıl davam etdirilməsi təmin olunmuşdur. Şəhərimizin könüllüləri karantin dövründə "Heydər Əliyev Fondu"nun, SOCAR-ın, Şəhər İcra Hakimiyyəti aparatının, millət vəkilinin, "Regional İnkişaf" İctimai Birliyinin və şəhərdə fəaliyyət göstərən sahibkarlar tərəfindən ayrılmış müxtəlif ərzaq bağlamalarının və tibbi vasitələrin şəhid ailələrinə, tənha yaşayan ahıl insanlara, aztəminatlı ailələrə, əlillərə, qayğıya ehtiyacı olan və ailə başçısını itirməyə görə sosial müavinət alan ailələrə çatdırılmasında fəal iştirak etmişlər. Bundan başqa gənc könüllülərimizin iştirakı ilə "Evdə qal" çağırış vərəqələri çoxmərtəbəli yaşayış binalarının girişlərinə və fərdi yaşayış evlərinin qapılarına, ticarət şəbəkələrinin, aptеklərin girişinə və dayanacaqlara vurulmuşdur. Bunun nəticəsidir ki, karantin dövründə qaydaları pozan və cərimə olunan ahıl vətəndaşlar və aztəminatlı ailələr qeydə alınmamışdır.

Karantin dövründə 65 yaşdan yuxarı insanların evdən çıxması qadağan olunduğu müddətdə onların sifarişi ilə ərzaq məhsullarının və dərman vasitələrinin alınıb onlara evlərində çatdırılmasını könüllülərimiz təşkil etmişlər. Habelə könüllülərimiz tərəfindən 65 yaşdan yuxarı tənha yaşayan sakinlərə aidiyyəti qurumlarla birlikdə sosial məişət xidmətləri, o cümlədən ev təsərrüfatı ilə bağlı işlərdə, əsas təlabat mallarının, kommunal ödənişlərin ödənilməsində və sair işlərdə lazımı köməklik göstərilmişdir. Bu işlərdə könüllülər icra nümayəndələrinin və bələdiyyələrin tərtib etdikləri siyahıya istinad edərək öz işlərini karantin dövründə yüksək səviyyədə yerinə yetirməyə nail oldular. Karantin dövründə həmçinin könüllülərin iştirakı ilə şəhər üzrə 1000 nəfərə yaxın ailəyə ərzaq bağlamaları çatdırılmışdır.

Cənab Prezidentimiz tərəfindən 2020-ci ilin "Könüllülər ili" elan edilməsi respublikamızda fəaliyyət göstərən könüllülərlə bağlı bir sıra ictimai təşkilatlarda birləşən gənclərimiz ölkəmizdə sosial, iqtisadi, ekoloji problemlərin aradan qaldırılmasına, bu istiqamətdə könüllülər həakatının fəaliyyətinin artırılmasına çox böyük təkan verdi. Eyni zamanda COVİD-19 pandemiyasına qarşı mübarizədə cənab Prezidentin çağırışına cavab olaraq könüllülərimiz həyatımızın bütün sahələrini iflic edən bu gözəgörünməz bələnin qarşısının alınmasında da öz sözlərini deməklə onlar nəyə qadir olduqlarını sübut etdilər.

Hazırda şəhərimizin könüllüləri əhali arasında pandemiya ilə bağlı maarifləndirmə işlərini davam etdirir, küçələrdə, ticarət və ictimai iaşə obyektlərində maskasız gəzən insanlara maskadan istifadə etmələrini və şəxsi gigiyena qaydalarına əməl etməyi tövsiyə edirlər. Gənclərimiz bütün sahələrdə, o cümlədən dünyada böyük bəla koronavirus pandemiyası ilə əlaqədər öz vətənpərvərlik borclarını layiqincə yerinə yetirirlər. Pandemiya ilə mübarizədə könüllülərin önə keçməsi indiyədək bu hərəkata, bu fəaliyyətə o qədər də ciddi yanaşmayan gənclər üçün də stimul yaratdı və könüllülüyün nə qədər əhəmiyyətli olduğunu bir daha sübut etdi. Artıq şəhərimizin könüllüləri təkcə pandemiya dövründə deyil daim öz fəaliyyətlərini davam etdirməyi qarşılarına əsas məqsəd qoymuşlar.

**Ayxan ƏSGƏROV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunda aparıcı məsləhətçi**

# Qanuna qarşı çıxanlar haqlı cəzalarını almalıdırlar

Əvvəli 4-cü səhifədə

8 may tarixində DTX tərəfindən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyində həyata keçirilən xüsusi əməliyyat ölkə Prezidentinin sözügedən bəyanatının özünü çox gözlətməyən nəticəsi olmuşdur. Belə ki, qeyd olunan Nazirliyin yüksək vəzifəli şəxsləri, o cümlədən nazir müavini Rafiq Bayramov və Nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov öz səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı qanunazidd əməllərə yol vermələri ilə bağlı təqsirləndirilərək barələrində həbs qətimkan tədbiri seçilmişdir.

Azərbaycan xalqının yaşı minilliklərlə ölçülən zəngin mədəni irsinin qorunmasının, teatr, kino, kitabxanaçılıq, muzey işi, nəşriyyat işi, xalçaçılıq və digər mühüm sahələrin etibar edildiyi bir nazirlikdə bu cür neqativ hallara yol verilməsi haqlı olaraq hiddətlə qarşılanmalı, ən kəskin tərzdə qınanmalıdır. Ermənistanın davam edən təcavüzkarlığı nəticəsində onsuz da çoxsaylı vandalizmə məruz qalmış mədəniyyətimizin keşiyində durmalı olan məmurların xəyanət yolunu seçməsi həm hüquqi, həm də mənəvi baxımdan bağışlanılmazdır və onlara qarşı qanunun ən sərt formada tətbiqi mütləqdir.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, dövlət tərəfindən əhalinin rifahına xidmət edən, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində addımlar atdığı bir vaxtda vətəndaşların haqqını qəsb edən məmurlar da tapılır. Belələri öz əməlləri ilə dövlətimizə, dövlətin dayaqlarına zərbə vuran cinayətkarlar və bu xalqa, millətə, dövlətə xəyanət edən insanlardır. Onların da cəzası şübhəsiz ağır olacaq. Çünki buna Prezidentimiz cənab İlham Əliyevin qətiyyətli və geridönməz siyasəti əsas verir. Bu prosesdə dərs çıxarası və nümunə götürəsi çox önəmli məqamlar vardır. Möhtərəm Prezidentimiz çıxışlarının birində vurğulamışdır ki, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə bir gün də dayanmır. Bu mübarizənin artıq yaxşı nəticələri var, daha da yaxşı nəticələri olacaqdır. Biz bu böyük bəlanı ölkəmizdən yığışdırmalıyıq, təmizləməliyik. Elə etməliyik ki, Azərbaycan hər sahədə - həm siyasi, həm iqtisadi, həm də korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə sahəsində nümunə olsun və olacaqdır.

Bu sözlər bu gün artıq öz real təsdiqini tapır. Davamlı olaraq aparılan bu mübarizədə sərgilənən iki cəhət dövlətinin sabahını düşünən bir vətəndaşın diqqətini daha çox cəlb edir. Bunlardan biri qətiyyət, digəri isə mərhəmətdir. Cənab Prezident tez-tez istər insanlarla görüşlərində, hansısa müəssisələrin açılışında, yaxud qəbullarda məmurlara dəfələrlə bildirir ki, bu əməllərindən əl çəksinlər. Çünki onların bütün əməllərinin hər birindən Prezident xəbərdardır. Lakin buna məhəl qoymadan yenə də ehtiyac içində olan insanların ruzisinə göz dikən acgöz məmurlarla mübarizədə Prezidentin göstərdiyi qətiyyət daha çox önəm kəsb edir.

Cənab Prezidentin həyata keçirdiyi anti-korrupsiya siyasəti hazırda cəmiyyətdə belə bir qənaəti tam olaraq formalaşdırıb: indi Azərbaycanda məmur olmaq imtiyaz deyil, məsuliyyətdir. Xalq, dövlət, ədalət mühakiməsi qarşısında məsuliyyət. Lakin Prezidentin dəfələrlə bildirməsinə baxmayaraq, bunu hələ də dərk etməyən məmurlar qalmaqdadır. Onların hər birinin qanunazidd əməllərinin qarşısının alınması istiqamətində hüquq mühafizə orqanları tərəfindən mühüm addımlar atılır. Bu artıq dövlətin korrupsioner məmurlara qarşı apardığı siyasətdə qətiyyətin göstəricisidir. Çünki dövlətin, xalqın malını mənimsəyən şəxs məhz dövlətin sütunlarına, hakimiyyətin mənbəyinə zərbə vurur. Onun cəzası da törətdiyi əmələ müvafiq olur.

**Möhübbət BƏDƏLOV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə işin aparıcısı**

# Kurort şəhərimiz - Naftalanda yaşıllaşdırma işləri davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq kurort şəhəri Naftalanda bir sıra infrastruktur və sosial layihələr uğurla həyata keçirilib. Şəhərimizdə karantin rejiminin yumşaldılmasından sonra, Naftalanın estetik gözəlliyinin bərpası və turist məmnunluğunun təmin edilməsi məqsədilə əlaqədar yaşıllaşdırma işlərinə başlanılıb.

İlk olaraq şəhərin Heydər Əliyev prospektində yerləşən çoxmənzilli yaşayış binalarının eyvanlarına xüsusi dizaynlı dibçəklərdə əkilmiş dekorativ bəzək gülləri düzülüb. Həmçinin prospektdə ünvan bildirən məlumatverici lövhələr quraşdırılıb.



Kurort şəhərimizin təbii gözəlliyinə əlavə rəng qatmaq üçün şəhər ərazisində tədricən bütün binaların fasad hissəsinin gül-çiçəklə bəzədilməsi nəzərdə tutulub.

# Xalqımız müqəddəs Ramazan bayramını qeyd edir




İslam dünyası əziz bayramı - Ramazan bayramı ərəfəsindədir. Hicri-qəməri təqvimlə şəvval ayının 1-də başlayan və bir neçə gün davam edən bu bayram mübarək oruclуq ayının qurtarması ilə əlamətdardır. Ramazan bayramı Allah-təalanın mömin bəndələrinə bir ay boyunca tutduqları oruc müqabilində verdiyi mükafatdır. Təsadüfi deyil ki, bu bayrama ərəbcə "İd əl-fitr" ("İftar bayramı") deyilir. Yəni bayram günündə müsəlman Ramazan ayında oruc ibadətini başa çatdırdıqdan sonra iftarını açıb normal həyata qayıdır.

Hər bir müsəlman üçün bir ay oruc tutmaq fərz olduğu kimi, Ramazan bayramında fitrə zəkatı vermək də vacibdir. Müsəlman fitrəni nemətlər bəxş edən Allaha şükür etmək, bayram günü kasıbları sevindirmək, oruc vaxtı buraxdığı səhvlərdən təmizlənmək üçün verir. Fitrəni yalnız imkanlı şəxslər çıxarmalıdırlar. Ailə sahibi ailənin hər bir üzvünün adından fitrə verməlidir.

Fitrə bayram namazı başlamazdan qabaq çıxarılmalıdır. Əks təqdirdə bu, fitrə hesab olunmur, adi sədəqə sayılır. Çıxarılan fitrə ilk növbədə ehtiyacı olan qohumlara, qonşulara, tanışlara, eləcə də digər insanlara verilir. Fitrə bir kasıbın azı birgünlük qida ehtiyacını ödəməlidir. İmkanlı müsəlmanlar daha çox fitrə çıxarıb savab qazanırlar. Özü də bir şəxsin fitrəsi bir kasıba da verilə, bir neçə kasıb arasında da bölünə bilər. Ramazan bayramı həm də müsəlmanların həmrəyliyini, birliyini, onların arasında qarşılıqlı anlaşmanı möhkəmlətmək üçün fürsətdir.

Bayramın davam etdiyi günlərdə insanlar bir-birinə qəlbən daha yaxın olur, bayram sevincini bölüşürlər.

Bütün müsəlman dünyasında olduğu kimi, ölkəmizdə də Ramazan bayramı yüksək səviyyədə qeyd edilir. İnsanları şənlik, fərəh duyğuları bürüyür. Milli müstəqilliyin bərpasından sonra ölkəmizdə dövlət-din münasibətləri nizama salınmış, etiqad azadlığı təmin edilmişdi.

Ramazan bayramı qeyd olunarkən şəriət qaydaları hər bir müsəlman xalqının milli adət-ənənələri ilə çulğalaşır. Bu, ölkəmizdə də belədir. Bayram ərəfəsində müsəlman vətəndaşlarımız qəbiristanlıqları ziyarət edib dünyadan köçmüş əzizlərini anır, torpaqlarımızın müdafiəsinə qalxıb şəhid olmuş vətən övladlarını yad edir, onların ruhuna Quran ayələri oxudururlar.

Oruc Ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər. İslamda Ramazan ilin ayları arasında ən şəfaqətli və ən müqəddəs ay hesab edilir. Onu "on bir ayın sultanı" da adlandırırlar. Ramazan gecələrindən birində müsəlmanların müqəddəs kitabı "Qurani-Kərim" nazil olub. Həmin gecə "Qədr" və ya "Əhya" gecəsi adlanır.

Ramazan ayında tutduğunuz oruc, etdiyiniz dualar qəbul olunsun! Bayramınız mübarək olsun! Allah çıxardığınız fitrənin əvəzini versin!

**Habil ABDULLAYEV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında Dini qurumlarla işin təşkilatçısı**

# Kurort şəhərimiz Naftalanda elektrik təchizatının yaxşılaşdırılması istiqamətində işlər davam etdirilir



Ölkə rəhbərliyi tərəfindən aparılan uğurlu siyasət, həyata keçirilən islahatlar, regionların sosial-iqtisadi inkişafı proqramı respublikamızın inkişaf dinamikasını daha da sürətləndirir. Bütün sahələrdə olduğu kimi elektrik təsərrüfatlarının yenidən qurulması da bu inkişaf dinamikasına öz töhvəsini verməkdədir.

Həmçinin Naftalanda da turizmlə bərabər bütün infrastrukturun inkişafına diqqət artırılmışdır. Həyata keçirilən tədbirlər nəticəsində vətəndaşların kommunal sahədə mövcud olan bir sıra problemlər öz həllini tapmışdır. Aparılan abadlıq-quruculuq və yenidənqurma işləri bu gün də davam etdirilir.

Hazırda şəhərimizdə elektrik şəbəkələrində yüklənmələrin azaldılması və şəbəkələrdəki texniki itkilərin minimuma çatdırılması istiqamətində işlər aparılır, transformator məntəqələri yeni avadanlıqlarla təchiz olunur.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**

# Naftalanlı şagird "Ən yaxşı təqdimat" müsabiqəsində qalib olmuşdu



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü münasibətilə 2019-2020-ci dərs ilində ümumtəhsil məktəb şagirdləri arasında keçirilmiş "Ən yaxşı təqdimat" müsabiqəsində Azərbaycan Respublikası Təhsil Nazirinin 08 may 2020-ci il tarixli müvafiq əmri ilə Naftalan şəhər S.Vurğun adına 2 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Əliyeva Alsu Rauf qızı tərifnamə ilə təltif olunmuşdur.

Şagirdimizi təbrik edir və uğurlarının davamlı olmasını arzulayırıq.

# 2020-ci ilin ikinci yarısı üçün NAFTALAN QƏZETİNƏ ABUNƏ YAZILIŞI BAŞLANMIŞDIR

Biz bir daha oxucularımıza müraciət edirik. "Naftalan" qəzeti daim Sizin köməyinizə arxalanıb, şəhərin yeganə informasiya vasitəsi olaraq maliyyə durumunun ən çətin vaxtlarında nəşrini dayandırmayıb.

Bazar iqtisadiyyatı şəraitində qəzetin dövriliyinin artması və yüksək poliqrafik səviyyəsi Sizin dəstəyinizdən asılıdır. Biz yenə daimi oxucularımız olan ziyalılara, gənclərə, fəallara, bir sözlə, qəzetin təəssübünü çəkən insanların köməyinə ümid edirik. Abunə kampaniyasının başlanması ilə əlaqədar bir daha xatırladırıq ki, qəzetimiz abunə qiymətinə görə ən ucuz qəzetdir. Siz üzəyinizcə olan mövzuları "Naftalan"ın səhifələrində tapıb oxuya bilərsiniz.

Abunə yazılışı redaksiyada və "Kapitalbank"ın Naftalan filialında aparılır.

Qəzetin abunə qiymətləri aşağıdakı kimidir:

İllik - 20 manat.

Yarımillik - 10 manat.

Abunə yazılmağı unutmayın!

# ELAN

# Naftalan şəhər əhalisinin NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Daxili İşlər orqanlarında vakant orta rəis heyəti vəzifələrinin komplektləşdirilməsi üçün 2020-ci ilin may ayının 18-dən iyun ayının 18-dək müsabiqə elan edilmişdir. Müsabiqədə iştirak etmək istəyən şəxslər may ayının 18-dən, iyun ayının 18-dək **http:www.mia.gov.az/index.php?/az/content/29799/** ünvanında yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən doldurmaq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

**Naftalan şəhər Polis Şöbəsinin rəhbərliyi**

# "Naftalan" qəzetinin reklam xidmətləri

**Əziz həmvətənlər, diqqətinizə çatdırmaq istəyirik ki, siz doğma qəzetimizdə hər cür elan, reklam yerləşdirə bilərsiniz. Doğmalarınızı, əzizlərinizi ad günləri münasibətilə təbrik edə bilərsiniz.**

**Bundan başqa iş yoldaşlarınıza, dostlarınıza üz vermiş ağır itki (iraq olsun) münasibətilə başsağlığı, nekroloq verdirə bilərsiniz.**

**Göstərilən xidmətlərin haqqını siz köçürmə, yaxud nağd yolla (sizə sərf edən qaydada) ödəyə bilərsiniz. Əziz həmvətənlər, "Naftalan" qəzetinin reklam xidmətlərindən istifadə edin.**

# Gənclərin qorunması 2020-ci il 31 May Ümumdünya Tütünsüz Gününün əsas mövzusudur

Tütünçəkmənin ölümsaçan təsirləri təkzibedilməz fakt olaraq təsdiq olunmuşdur və bu səbəbdən tütünçəkmə bəşəriyyətin ən ciddi problemlərindən biridir.

Əhali arasında tütünçəkmənin zərərləri barədə inandırıcı və rəsmi mənbələrə əsaslanan göstəricilərə istinad edilməklə aparılan təbliğat işləri insanların tütünçəkmədən xilas olması yolunda aparılan ən səmərəli tədbirlərdən biridir.

Tütün sənayesi gəncləri məqsədyönlü hədəf auditoriyasına cəlb edir:

Gənc insanları manipulyasiya etməyə cəhd edən tütün istehsalçıları, müəyyən qrup əhali üçün öz məhsullarını daha cəlbedici etməyə çalışaraq, çox vaxt gözəl firma qablaşdırması və simvolların köməyi ilə onları "bəzəmək" üsullarına əl atırlar. Son vaxtlar bu kontekstdə elektron siqaret və qızıdırıcı tütün məmulatlarının istehsalı diqqəti cəlb edir. 2020-ci il Ümumdünya Tütünsüz gününə həsr olunmuş tədbirlər gənclərə sağlamlıqlarını nəzarətdə saxlamağa və tütündən asılılıqdan imtina etməyə yönəlmişdir.

Son zamanlar Azərbaycan Respublikasında tütünçəkmə ilə mübarizə sahəsində böyük qanunverici, həmçinin təşkilati, metodiki və təbliğatmaarifləndirici işlər aparılır.

Bu məqsədlə Naftalan şəhər Gigiyena və Epidemiologiya Mərkəzi bir sıra maarifləndirici tədbirlər keçirmişdir.

Tütünçəkənlər bilməlidirlər ki, son siqaretdən:

- 8 saat sonra qanda oksigenin həcmi artır və ürəyin fəaliyyəti normallaşır.
- 24 saat sonra zəhərli maddə olan dəm qazı orqanizmdən xaric olur və ağciyərlərdəki bəlğəm azalır.
- 48 saat sonra nikotin orqanizmdə olmur. Dad və qoxu hiss etmə qabiliyyəti normallaşır.
- 72 saat sonra tənəffüs yolları tüstüdən tam təmizlənir,nəfəs almaq asanlaşır.
- 2-12 həftə sonra qan dövranı bütün bədəndə bərpa olunur. Yerimək asanlaşır.
- 3-9 ay sonra öskürək, təngnəfəslik aradan qalxır.
- 5-10 il sonra infarkt riski heç siqaret çəkməyənlə eyni səviyyəyə enir. Ağciyər xərçənginə tutulma riski azalır.

ÜST-nin Çərçivə konvensiyasında nəzərə alınan, əsas etibarı ilə tütün məmulatlarına qoyulan verginin artırılması, tütünsüz mühitin yaradılması, insanlara tütündən imtina etməyə köməklik göstəriməsi, əhalinin kütləvi informasiya vasitələri ilə maarifləndirilməsi, tütün məmulatlarının ticarət dövriyyəsinin qadağan olunmasının yerinə yetirilməsinə nəzarət kimi tütün əleyhinə tədbirlər aiddir.

ÜST-nin Çərçivə konvensiyasının və digər təşəbbüslərin geniş miqyasda həyata keçirilməsi bir çox insan həyatını qorumağa və əhalinin sağlamlığı və rifahını yaxşılaşdırmağa imkan verəcək.

**Afət İSAYEVA,**
**Naftalan şəhər Gigiyena və Epidemiologiya mərkəzinin həkim gigiyenisti**

# İTMİŞDİR

●Naftalan şəhər sakini, Ş.Qurbanov küçəsi bina 2, mənzil 9-da yaşayan Bayramova Sima Vaqif qızına məxsus 93 №-li reyestr, inventar nömrəsi isə 152 olan Texniki Pasport itdiyi üçün etibarsız sayılır.

●Naftalan şəhər sakini, İ.Həsənzadə küçəsi bina 22, mənzil 49-da yaşayan Babaxanov Mobil Babaxan oğluna verilmiş 01.04.2009-cu il tarixli, 510011000034-05101-093010 №-li reyestr, 1809000914 qeydiyyat nömrəli Reyestrdən Çıxarış itdiyi üçün etibarsız sayılır.

REDAKTOR:
Əliyeva Aytən Həbib qızı

Qəzet 1992-ci ilin fevral ayından nəşr edilir
Qəzet ayda bir dəfə çıxır

Ünvan: Naftalan şəhəri, Heydər Əliyev prospekti 77.
Telefon: (022) 352-14-55
Naftalan@mail.az

Qəzet "Mingəçevir Poliqrafiya Müəssisəsi" MMC-də ofset üsulu ilə çap edilmişdir.
Dizayner: Rübabə Mustafayeva

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər
Tiraj: 500